# "Qiymət" poeması haqqında düşüncələr

*(Əvvəli ötən sayımızda)*

Azərbaycan xalqının mübarizə əzmini qırmaq onu mənəvi cəhətdən zəlil etmək, yazıqlaşdırmaq və bununla da öz hakimiyyətini diktə etmək zaman-zaman bütün işğalçıların əsas məramı, məqsədi olub. Lap ərəb işğallarından üzü bəri düşmənin mənfur niyyətinə qarşı dayana bilən iradəni qırmaq üçün insanların psixoloji istinadlarını dağıtmaq qəsbkarlıqda birinci addım idi.

Sovet hakimiyyətinin təmsilçiləri də bu yolla gedirdi. Onlar yaxşı bilirdilər ki, ailə bütövlüyü, ailədəki böyüklük nə qədər kult kimi qalırsa, demək, ailə üzvlərinin gücü, iradəsi də qalır. Təsadüfi deyildir ki, yırtıcı xisləti kəlbilər cəmiyyətin örnəyi olan ailələri başçız qoymaqla öz istəklərinə can atırdılar. Hüseyn kişinin ailəsinin məhv edilməsi də bu planın tərkib hissəsi idi.

Şübhəsiz, ailə üzvlərinin fəryadlarına baxmayaraq, fiziki güc sahibi Muğdatı və mənəvi istinad sahibi Hüseyn kişini Kəlbi aradan götürə bilir. Çünki bu «haqqı» ona rejim verib. Onların qansızlığı, qəddarlığı o yerə çatır ki, hətta başsız qalan ailəni belə evsiz qoymağa da əl atırlar.

Beləliklə, bir gün Kəlbinin göndərdiyi adamlar evi sökməyə, ailənin ocağını dağıtmağa başlayır. Usta Mahmud Hüseynin, Muğdatın həmkəndlisidir. Fəhlələr onun başçılığı ilə gəlib. Ancaq Mahmud özü də mənən iqtidardan salınmış adamdır. Hökumət onun gözünü qorxudub. O, yaxşı bilir ki, əgər tapşırığı yerinə yetirməsə, onda onun özünü də qandallayıb Sibirə sürgün edə bilərlər.

Müəllif Mahmud obrazını poemaya gətirməklə kəlbilərin qəddarlıq ölçülərini göstərmək istəyir. Yəni o, nə qədər insanlığını itirməmiş olsa belə, insanlıq adına bir hərəkət etməyə qadir deyil. Bu yerdə Mahmudla Ağabanunun dialoqu oxucunun yaddaşında özünə yer eləyir:

Ağabanu çox dedi,
Qulaq asan olmadı.
Gəlini şüvən etdi,
Əlsaxlayan olmadı.
Axırda heç birində
Təpər, taqət qalmadı.
Ağabanu birtəhər
Yenə də gəldi dilə.

Mahmudla Ağabanunun qarşılaşmasında iki faciə qəhrəmanı üz-üzə gəlir. Biri bilir ki, haqsızdır və bu haqsız əməli icra etməməlidir. Ancaq mühit onu o qədər yazıq vəziyyətə salıb ki, haqsızlığa qarşı heç bir etiraz etməyə gücü yoxdur. Ona nə buyursalar yerinə yetirməyə məhkumdur. Yəni artıq əhalinin müəyyən qismi köləyə çevrilib. Əslində, elə rejimin də məqsədi əhalinin iradəsini qırmaq, onları acizləşdirmək, yazıqlaşdırmaq idi. Nə qədər ki, insanın iradəsi var, o, haqqı müdafiə edəcək nə isə deyə bilər, demək, onun hələ gücü var. Mahmud isə artıq bu gücdən məhrumdur. Ancaq Hüseynin ailəsi, hətta qoca qadın - Ağabanu bu haqsızlıqları gələnlərin üzünə çırpa bilir, onlara etiraz edə bilir. Ağabanunun Allaha istinadı, əslində, onun son ümididir:

- Ay Mahmud, Allah yoxmu,
Adam haqqı itirməz.
Bu zülmü ki, edirsiz
Yer görsə, yer götürməz.
Göy görsə, göy götürməz.
Adam başsız bir evə,
Xain nəzər yetirməz.
Ağabanu çox dedi,
Haqq belə, divan belə.

Hər halda Ağabanunun mübarizə əzmi Mahmudu da dilə gətirir. Və onu çox dəhşətli bir etirafa məcbur edir. Bu etiraf da ondan ibarətdir ki, zəmanə özü bu haqqı kəlbilərə verib. Kəlbi olan yerdə başqa heç bir qanun işləmir. Əmr də, qanun da elə onun özüdür:

Mahmud dayanıb, dindi.
- Biz neynək, Ağabanu,
Kəlbinin əmridir bu,
Onun əmri qanundur.
Kəlbi olan yerdə də
Haqq odur, divan odur.

Ailənin taleyi həll olunur. Heç bir kimsə haraya yetmir. Müəllif bu yerdə çox maraqlı bir məqamı da əsərə gətirir: əgər Kəlbi kağız versə, ev sökülməz. Ağabanu əlacsız qalıb bir də Kəlbinin hüzuruna gedib ona yalvar-yaxar eləyir, ondan kağız istəyir. Kəlbi isə bu kağızı yazıb verir. Mahmud kağızı alıb oxuyur. Və görür ki, Kəlbi yazıb ki, evi sökün-dağıdın:

Ağabanu dözməyib,
Zülüm-zülüm ağladı.
Nəsibənin göz yaşı
Bulaq kimi çağladı.
Beləcə bir xaniman
Külünglə dağıdıldı.
Əvəzində yerində,
Sökülmüş daşlar qaldı.

Təsəvvür edin, belə bir zamanda Şəddatdan böyük qardaşı, hələ kiçik olsa da gördüyü hadisələri yaddaşına yazır, ömrü boyu bunların heç birisini unutmur. Və təbii ki, zamanın sonrakı çağlarında Şəddadın ötüb-keçənləri öyrənməsi üçün tarix müəllimi missiyası daşıyır. O, ailənin başına gələn hadisələri birər-birər qardaşına açıqlayır.



Ümumiyyətlə, insan təbiəti qəribədir. İnsana qəddar münasibət ikini nəticə verə bilər. Bir halda insanın qəlbində qəddarlara qarşı kin, nifrət yuva qurur. Böyüdükcə qisas hissiylə alışıb-yanır. Digər halda insan qəddarlığın, insana vəhşi münasibətin tərəfdarı olmur. Cəmiyyətə, insanlara münasibətdə humanist yol tutur. Böyük insanlığa xidmət etməklə, insanın müqəddəs təbiətini qorumaqla sanki qəddarlardan qisas alır. Şəddadın olub-keçənləri qardaşından yerli-yataqlı öyrənməsi onun həyatında ikinci yolu tumasına əsas olur, zəmin olur.

Ağabanu Şəddadın nənəsidir. Nəsibə isə anasıdır. Körpə uşaqlar bu iki qadının himayəsində qalır. Hətta Kəlbinin göstərişi ilə həyətdəki balaca koma da uçurulur. Bu qədər qəddarlığın nəticəsində iki qadının - müdrik Ağabanunun və qeyrətli Nəsibənin sayəsində ailə məhv olmur.

Kəlbi evləri dağıtmaqla, həyəti yerlə-yeksan etməklə nə qədər bu ailəni mənəvi cəhətdən öldürmək istəyirdisə, bir o qədər də qızıl axtarmaq planı vardı. Ancaq o, bu niyyətlərin heç birisinə yetə bilmir. Onsuz da iki qadının timsalında mənəvi güc yenə qalırdı. Qızıl isə bu iki qadının mənəvi istinadı idi. Onların namusu, hünəri ailəni, uşaqları qoruyub saxlamaq niyyətləri idi.

Müəllif əsərini birinci hissəsini çox ibrətli bir sonluqla bitirir:

İllər sürətlə ötür. Hüseyn kişi sürgündən qayıda bilməsə də, Muğdat sürgündən qayıda bilir. Sibir həyatı onun əzmini qırmır, qıra bilmir.

30-cu illərin axırlarına yaxın sürgünün daha bir ilini Qazaxıstanda yaşamalı olur. Hərdən ara-sıra kəndə məktublar gəlir. Bütün ailə ümidini yollara bağlayır. Yenə də kəndə qayıtmağa icazə verilmir. Bakıda qalmalı olur. Muğdadın uzun sürgün yolu müharibə ilə başa çatır. Ərizə yazıb könüllü müharibəyə gedir. Çox şərəfli bir döyüş yolu keçir. Qəlpələrlə, əlilliklə qayıtsa da hər kəsin yanında başı uca olur.

Davadan sonra
Muğdat kəndinə qayıtdı.
Doğma Gərmətük kəndinə.
Ancaq burda yaşamadı.
Ömrünün davamına
Burada başlamadı.
Ailəsini götürüb
Bakıya yollandı.
Ancaq bu kənd oldu
Həmişə güvənci, andı.

Oğulları
seyrək görünür bu kəndin.
Dava çoxunu
Əlindən almışdı.
«Meşə çaqqalsız olmaz»
Kəlbi kimiləri qalmışdı.

Gərmətük kəndinin mənəvi təbiəti xeyli dəyişmişdi. Doğrudur, Kəlbi kimiləri qalsa da, ancaq bu kənd, bu mahal elə qüdrətli oğullar yetirmişdi ki, onların adları, şöhrətləri, ləyaqətləri kəlbiləri görünməz etmişdi.

Görünür,Muğdat da kəlbilərin hələ də qalmaqda olduğu kənddə yaşamaq istəmir. Baxmayaraq ki, ona müharibə qəhrəmanı kimi çox böyük hörmətlə yanaşırdılar. Müəllif də çox böyük sevgi ilə mahalın yetirdiy qəhrəmanların adlarını çəkir. Biz onların sırasında adları çəkilməyən çoxlarını - eləcə də Muğdatın da adını görürük:

Hamıya bir gözlə baxır
Dava vaxtı
Qoynunda çoxlu
Çinarlar bitirmişdi.
Həzi Aslanovu,
Baba Xəliloğlunu,
Şəddatı yetirən bu kənd
Kəlbi kimiləri də yetirmişdi.
Davaya
Tanış idi bu kənd.
Oğullarının çoxunu,
Topundan, tüfəngindən keçirmişdi.
Çoxunu,
Tüfənginin darağıyla,
Sünbül kimi biçmişdi.
Davanın elə bil ki,
Bu kənddən yolu düşmüşdü.
Hər üzünə bələddi
Sərt üzünü də
sərgərlərdə görmüşdü.

Bu, bir neçə misranın içərisində bütöv bir xalqın faciəsi sözlərə sığınıb. Hər sözün arasından necə dəhşətli mənzərələr boylanır. Muğdat həyatın sərt üzünü öz kəndindən başlayaraq, sürgünlərdən keçərək, nəhayət, müharibə od-alovlarında bişərət, görərək geriyə dönmüşdü. O, təzədən mənfur insanlarla qaşılaşmamaq üçün, adını-ünvanını qorumaq üçün bütün ailəni götürüb Bakıya köçdü. Bütün ömrü boyu kəndin həsrətilə yaşadı. Övladlarını, nəvələrini doğma yerlərə sevgi ilə böyütməyi tövsiyə elədi. Bu, hər halda böyük insanlıq dərsi idi, bütün pisliklərin qabağında yaxşılıqları, ləyaqəti əvəz bilmək, üstün tutmaq böyük insanlıq dərsi idi.

Yəqin ki, hər bir oxucunu maraqlandırır Kəlbinin sonrakı taleyi:

Davadan sonra
çox işlərin üstü açıldı.
Kəlbinin isə
Paxırı açıldı.
İşindən çıxarıldı,
Arağa qurşanıb
Bekar dolanırdı,
Avaralanırdı.
Bir gün də
Xəndəyə düşüb ölmüşdü.
Ölüsünü
üç gündən sonra
xəndəkdə
bir-iki nəfər
pal-paltarda
torpaqla örtmüşdü.
Zülmü-zülümkarı
yer götürmür.
Ömrünü beləcə başa vurdu,
Kəlbini qəbir götürmədi,
Xəndək götürdü!

Bu hissədə oxucu təəssüratını dağıtmamaq üçün araya heç bir söz əlavə etmək lüzumu yoxdur. Müəllif mənzərəni bütün çılpaqlığı ilə verə bilib. Kəlbinin taleyi həyata şər toxumu əkənlərin hər biri üçün dərs olmalıdır. Onu öz dövründə, zamanında görmək, onun əlinə imkan verməmək, insanlıq adına ləkə ola biləcək insancığazların qarşısını kəsmək.

Müəllif birinci hissənin son parçası ilə, yəni Kəlbinin taleyinin, özü də bu qədər dərəcədə dəhşətli, acı taleyinin sonluğunu görmək, yaddaşlara yazmaq üçün mənzərəni bütün istedadı ilə yaradıb.

Elşad Səfərlinin «Qiymət» poemasının birinci hissəsi bu yerdə bitir. Əsərin birinci hissəsində Şəddat Cəfərov görünmür. Amma Ş.Cəfərovu yetirmiş olan mühit, zaman bütün reallıqları ilə əsərə gətirilir. Hər bir misra insan taleyini oxumaq üçün canlı bir bələdçiyə çevrilir. Onu da qeyd etmək lazımdır ki, Lənkəranın Gərmətük kəndi zamanına görə, dövrünə görə həm də elə Azərbaycanın özüdür. Kəlbi isə Azərbaycanın hər yerində at oynadan qansız, savadsız, vicdandan əsəri olmayan insanların ümumiləşmiş obrazıdır.

Elşad Səfərli kifayət qədər nəzəri cəhətdən hazırlığı olan müəllifdir. «Qiymət» poeması isə onun həyatı bədii dərkinin ən yaxşı timsalıdır.

*(Davamı var)*